№: 02 2025
https://doi.org/10.64400/ndueej.035
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# BOLQAR/BULQARLARDA QƏDİM TÜRK MİFİNİN NAXÇIVAN TOPONİMLƏRİNDƏ İZLƏRİ

**Firudin Rzayev**

https://orcid.org/0009-0008-3291-79IX
AMEA Naxçıvan Bölməsi
**Yazışılan müəllif:* firudinrzayev@gmail.com; *Tel.: +994 555778890*

## ÖZƏT

Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan bolqarlarda qədim türk mifinin Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Tədqiqatlarda da adı keçən Bolqar mifinin tarixi m.ö. II-I minilliklərə söykənməklə, digər türklərdə də xatırlanmaqla, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim miflərin Naxçıvan toponimlərində izi indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiq edilməmiş və onlarla bağlı Tanrı adının izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimik sistemindəki oykonimik adlarda Bolqar mifik adları dil və tarixi faktlar əsasında təsdiq edilir. Bu mifi daşıyan tayfalar demək olar ki, Naxçıvanın bütün toponimik sistemi oykonim, oronim, hidronimlərində də ilkin bolqar mifi variantında təkrarlanır. Bolqar türk mifinin prototürklərlə bağlı adlarda qalması bu mifik inancın qədimliyini sübut edir. İstər Naxçıvan, istərsə də digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.

**Açar sözlər:** *Bolqar mifi, Azərbaycan, Naxçıvan, oykonim, oronim, hidronim.*

Azərbaycan və onun ayrılmaz torpağı olan Naxçıvan əhalisinin etnogenezində xüsusi yeri olmuş tayfalardan biri də Bulqar prototürkləri olmuş və bu tayfalar da tarixi proseslərdə özlərinə məxsus mifoloji inancları məişətləri və adət ənənələrində daşımışlar. Qədim Naxçıvan ərazilərində öz adları ilə bağlı xeyli sayda məntəqə adlarında istər adları, istərsə də mifoloji inanclarını əbədiləşdirən bu prototürklər, eləcə də onun Basil-Barsil, Çakır, Kuruqur, Qazan qollarının da tariximizdəki yeri, Naxçıvanla bağlılığı, inancları sistemli tədqiq edilməmişdir. Bununla bərabər bolqar/bulqarlar haqqında da xeyli sayda tədqiqatlar əsasən əcnəbi alimlərinə məxsus olmuş, bu araşdırmalarda onlar m.ö. II yüzillik və eramızın X əsrlərinə qədər olan tarixlə bağlanmaqla, son dövrlərə aid edilmişdir. Həmin dövrdə tarixi qaynaq və tədqiqatlarda Bolqar/Bulqar türkləri də müəlliflər tərəfindən fərqli tarixə, ada sahib tayfalar kimi təqdim edilmişlər. Burada onların göstərilən qolları olan prototürklər də qaynaqlarda yer almış, adları müxtəlif mənalarla izah edilmiş, lakin, bu tayfaların məişətində onların daşıdığı mifik inanclarla bağlı tam olaraq hər hansı bir qəti fikir söylənilməmişdir. Burada Bolqar türklərinin də özlərinə məxsus mifoloji inancları olduğu və onların məişətində yer aldığı faktlarla göstərilmişdir. Bununla bərabər biz, bu mifoloji inancların tədqiqat əsərlərində, ensiklopedik əsərlərdə də tam olaraq yer aldığına, burada müxtəlif mifoloji baxışlar olaraq qeyd edilməsinə də rast gəlirik.

İ.Şopen ərazilərimizdə ermənilərin məskunlaşması haqqında məlumat verməklə yanaşı, bunu 1820-30-cu illərə aid edib, Azərbaycan ərazilərində məskun olan Kəngərli tayfalarından birinin hələ XIX əsrin ortalarında "bolqarlı" adlandığını qeyd edərək, bu tayfaların Kəngər tayfalarına aid

olduğunu göstərir [16, c. 537-539]. Əsərdə ümumən əsas həqiqət kənara atılmaqla, erməni və gürcü amili önə çəkilir, qədim xalqımızın istər əraziləri, istərsə də mədəniyyəti, mifoloji inancı və tarixi arxa plana çəkilir, bunlar haqqında hər hansı bir fikir söylənilmir.

Biz M.Xorenlinin də yazılarında Bolqar/Bulqar türkləri haqda bir tarixi məlumatla qarşılaşırıq ki, burada onların ərazilərimizə gəlişləri m.ö. II əsrə aid edilməklə, onların Kol əyalətindən cənubda yerləşdiyi göstərilir. Bununla bərabər müəllif, onların hələ m.ö. II əsrdən əvvəl Arazın yuxarı axarlarında yerləşən Basian ölkəsinin və Böyük Qafqazın sakinləri olduqlarını qeyd edir, lakin onların taya miflərindən söz açılmır [4, II 9; II 56; III 44].

Biz Y.Bequnovun bolqarlara dair yazılarında onların Xəzər dənizinin şimalına doğru Aral gölü ətrafı, Urala qədər xalq kimi formalaşması və dövlətçilik tarixinin elmi faktlarla Tunc dövrünə, m.ö. IV-II minilliklərə aid edildiyi məlumatı ilə rastlaşırıq. Burada Xəzər ətrafının bolqar/bulqarların və digər prototürklərin də ana yurdu olması xüsusi qeyd edilir [14, s. 23-36, 121-127, 142-144, 205]. Bu elmi faktlar Bolqar/Bulqar türklərinin ərazilərimizdə hələ m.ö. II minillikdən məskunluğunu, oğuz, skif, sak, sarmat birliklərində tarixi proseslərə qoşulduğunu bir daha təsdiq edir.

Bolqarların qədim Naxçıvan ərazisinə gəlişi bəzi qaynaqlarda m.ö. minilliklərə söykənir. Biz m.ö. VII əsrdə Sarmat sülaləsi dövrü Bolqar çarı Burtas dövründə onların Çinin şimalından Ön və Kiçik Asiyaya ərazilərinə yayıldıqlarını qeyd edilir. Dünya tarixinə dair yazılarda isə, Bolqar türkləri m.ö. III əsr Kiçik Asiyanın qərbində "Kazanlık" adında təqdim olunur, lakin burada da inanc məsələsi qeyd edilmir [18, s. 144-145]. Məlumatda göstərilən Ön və Kiçik Asiyaya əraziləri müasir Azərbaycan və Türkiyə əraziləridir ki, bu ərazilərdə Urmiya, Göyçə, Van gölləri arası qədim Naxər-Naxçıvan ölkəsinin ərazisi idi. Bu fakt onların bizim ərazilərimizdə m.ö. II yüz ildən də əvvəl məskun olduqlarını sübut edir. Biz bu fakta istinad etsək, bolqarlar ərazidə əskidən böyük gücdürlər, hakimiyyətə təsir edirlər və m.ö. III yüzillikdən də əvvəl Bolqar boyları özlərinin Basian ölkəsinə sahibdirlər.

Mənbələrdə bolqar/bulqarların m.ö. II minilliyin ortalarında (1512-ci ildə) özlərinin İdel dövləti yaratdıqlarından bəhs edən Y.K.Bequnov, çar Bulyar Tarqitayın Bulqar ərazilərinə hücuma yasaq qoyduğundan, m.ö. VII əsrdə Sarmat sülaləsi dövründə Bulqar çarı Burtas zamanında Çinin şimalından Kiçik Asiyaya qədər ərazidə məskun olduqlarına dair yetərli tarixi faktlar göstərir. O, bununla bərabər burada onların m.ö. II əsrdə "Çulman tolqay" dastanlarının mövcudluğu, kimmer-ckif sivilizasiyalarının formalaşmasında bolqarların rollarından da bəhs edərək yeni faktlar göstərir. Y.K.Bequnovun bu istiqamətdəki yazılarında Xəzər dənizinin şimalına doğru Aral gölü ətrafı Urala qədər bolqar/bulqarların xalq kimi formalaşması və dövlətçilik tarixi elmi faktlarla Tunc dövrünə, m.ö. IV-II minilliklərə aid edilir, Xəzər ətrafının digər prototürklərin də ana yurdu olmasına dair elmi sübutlar göstərilir [14, s. 23-36, 121-127, 142-144, 205]. Lakin biz burada Bolqarların m.ö. ən azı III

minilliklərdə tarix səhnəsində olması faktı ilə qarşılaşsaq da, mifologiyaya dair hər hansı bir məlumatla qarşılaşmırıq.

Digər mənbələrdə də Bolqar/bulqarların sak və massagetlərlə yanaşı göstərilməsi faktı onların m.ö. III minilliyin sonu II minilliyin əvvəllərində tarix səhnəsində olduqlarını göstərir [17, s.529, 591; 19, s. 355-356].

Azərbaycanda bu istiqamətdə geniş tədqiqatlar aparan görkəmli alim Q.Qeybullayev, N.Y.Merpertə istinadən onların türkdilli xalqlar qrupunda olduğuna dair maraqlı faktlar göstərmişdir. O, M.Xorenlinin bulqarlar haqqında yazısını təhrif edən sovet ideoloqlarına tarixi sübutlarla təkzib verib, onların Şimal Qafqaz ərazilərində də yayıldıqlarına dair elmi sübutlar göstərmişdir. Q.Qeybullayev bu ərazidəki Balqariya və balqarların bulqar varisləri olduğunu qeyd edərək, qədim İrəvan və Cənub Azərbaycan torpaqlarında da onların məskun olmaqla Bulqar dağı, Bulqarçay və bulqar tayfalarından olan basi/barsil, eskil, kazan tayfalarıyla bağlı adlarda izlərinin qaldığını göstərmişdir [6, s.133-135, 355-356; 7, s.103]. Bu tarixi faktlara baxmayaraq o bolqar/bulqarların mifoloji inanclarına toxunmamışdır. Bəs hansı mənbələrdə bu tayfaların mifoloji inancı ilə bağlı məlumatlar mövcuddur?

Biz Bolqar sözünün etimoloji izahına toxunan A.P.Novoselçevin tədqiqat əsərlərində akademik F.Nurutdinovun yazılarına istinadən müəyyən mifoloji fikirlərlə qarşılaşırıq. Burada bis sözünün "qara baş" və "qurd adamlar" mənasında mifoloji inanc daşıması fikrinin izahına rast gəlindiyi göstərilir. Müəllif, bu tədqiqatında bul, bal, bolqar, balkar, bier, beqer və s. fonetik variantlı sözlərin əski bolqarların "Qurd" mifoloji inancına bağlılığı ilə əlaqələndirildiyini, Qurt-Sindiu kultuna istinad edildiyinə tarixi faktlar göstərir [11, s. 324 – 334].

Q.Afanasev, İ.İvanovun yazılarında isə, onlar qəbir nekrapollardan aşkarlanan nümunələrə əsasən əski bolqarların antropoloji quruluşlarına görə bu tayfaları sarmat, aziat tayfalar qrupuna daxil etmişlər. Qəbirlərdən çıxan əşyalar və Pliskdə aşkarlanan nümunələrə istinad edən müəlliflər, Bolqar türklərinin Zərdüştlük inancında olduğuna dair sübutlar göstərib, Plisk qalası içindəki od mərkəzi və əşyaların da Zərdüştlük inancı ilə eyni olduğunu təsdiqləmişlər [1, s. 43-55].

Akademik F.Q.Nurutdinovun yazılarında isə, biz bu sözün "qara baş" və ya "qurd adamlar" mənası ilə qarşılaşırıq ki, burada bul, bal, bolqar, balkar, bier, beqer və s. fonetik variantlı bu sözlər protobulqarların "Qurd" mifinə bağlılığı ilə əlaqələndirilmiş, onların Qurt-Sindiu kultuna aid mifoloji inancla bağlılığı göstərilmişdir [12, s 324 – 334]. Bu inanc əlamətlərini əsas götürərək biz Bolqar/bulqarların Basil-Barsil, Çakır, Kuruqur, Qazan tayfa qollarının ayrı ayrılıqda mifoloji inanclarına nəzər salmaq istərdik.

Bolqarların Basil-Barsil adı qaynaqlarda "basil", "barsil", "bazir" yazılışları ilə qeydə alınır. Əgər diqqət etsək, adın "barsil" yazılışı qədim türk mifində Böri-Qurd sözünü təkrarlayır. Barsil adının qədim türk Böri-Qurd mifindən gəlib, Böri+us+il yazılışında "Zəkalı qurd yurdu" mənasında

olduğunu düşünürük ki, biz aşağıda oğuzların Qurd mifindən ayrıca danışacağıq. Bunları nəzərə almaqla biz adın Qurd mifindən gəlməklə Bars+il yazılışında "Qurt yurdu" mənasında olduğunu əsa qəbul edirik. Qeyd edək ki, qədim türk mifində başlanğıc-ana mənalı böri-"Qurd" leksik vahidi Oğuz və Uyğur "Oğuznamə" yazılarında böri olaraq dəfələrlə təkrarlanmışdır. Bu mif Börte-çino kimi monqol türklərində "Boz, çallaşmış qurt" kimi yayılmışdır Türklərdə Böri Alp, Böri Sin [2, s. 118; 9, s. 183; 13, s. 383; 15, s. 37], "Dədə Qorqud" dastanında Bəy+bura, Bur+laxatun, eləcə də Börte-Çinə kimi qədim və müasir şəxs adlarımızda bu mifin izi qalmaqdadır.

Bolqarların Basil-Barsil tayfa qolu ilə bağlı biz Naxçıvan ərazisində, Barz+ur- "Barsların qurduğu", Bərzirgan/Bərzirkan- Basil+kan- "Basil kağanı, Qurt xaqan" mifoloji inanc mənalı məntəqə adlarına təsadüf edirik .Bununla bərabər Naxçıvan ərazisində bolqarların Çakar qolu ilə bağlı Sənkar, Canqur Caqerşin, Çaker, Çakarçı kimi məntəqə adlarına rast gəlirik [3, s. 42, 57, 61, 160, 169, 178; 10, s. 32] ki, bu adlarda da biz qədim mifoloji inanc əlamətlərini izləyirik. Adda ər-"kişi, igid" sözündən sonrakı "Sak" sözü tayfa adıdır və bu adın Sax tanrı adından yaranması haqda biz yuxarıda məlumat verdik. Bəlkə də, sakların bir qolu olub sənədlərə Subər, Kənqər, Xəzər tayfaları kimi "Sakar" formasında düşən bu tayfa, Bolqar ittifaqına sonradan qoşulmuşdur. Biz bu adlardan Caqerşin məntəqə adına diqqət etdikdə burada ada qoşulan Sin/Zuən türk mifoloji tanrı inancı ilə rastlaşırıq. Bu ad "Sin tanrısının çakarı" mənasında izah olunur ki, biz bu adların teofor-tanrı adından gəldiyini görürük [8, s. 51].

Mənbələrdə Naxçıvan oykonimlərində bolqarların Kuruqur qolu ilə bağlı qeydə alınan Kuruqur, Qaraqur, Ənqurik, Karacar, Karaqerun məntəqə adları da [3, s. 41, 67, 163, 173], özlərinə məxsus mifoloji inanclar daşıyırlar. Ümumilikdə Kuruqur tayfa adına diqqət etdikdə, Kur+uq+ur əski türk sözlərindən formalaşmış addır. Burada türk dillərinə məxsus k≈q, u≈a səsəvəzləmələri nəzərə alındıqda əski türk "Yaradılış" dastanımızda Kara sözü tanrı adıdır. Bu fakt nəzərə alındıqda Kuruqur tayfa adı Kara+kur və məntəqə adı Qara+qur sözləri ilə "Coşqun Tanrı" mənasındadırlar. Bu adlardan Ənqurik məntəqə adında An/Anu sözü yuxarıda da qeyd etdiyimiz kimi qədim türk mifində Anu tanrı adı ilə bağlı teofor addır. Addakı Qur/Kur-"coşqun", ik/uk-"oğul" sözləri adı "Anunun coşqun oğulları" mənasında izah edir. Karacar adı sənəddə həm də Qarasur olaraq qeyd edilir ki, burada Kara sözü Tanrı və Sır/sur- "işıq" mənasında adı "Tanrı işığı" kimi mifoloji inanclar olaraq göstərir. Karaqerun məntəqə adı isə Kara+ kur+un/an, formasında "Coşqun Tanrıya mənsub" mənasında izah edir [2, s. 204; 5, s. 421]. Diqqət etsək, Naxçıvan ərazisində kuruqurlarla bağlı bu 5 məntəqə adlarının hamısı mifoloji inancla bağlı yaranmış qədim türk sözləri olmaqla etnooykonimlərdə yer almışlar ki, bu tayfa seçilən bir tayfa olmuşdur.

Bolqarlarda Qazan tayfa adının mənası da elmi cəhətdən xüsusi əhəmiyyət daşıyır. Kas+an yazılışında Kas tayfa adı və qeyd etdiyimiz -un/an-"mənsubluq" şəkilçisi ilə ad "Kaslara məxsus" mənasında izah olunmaqla, bu tayfanın kaslardan gəldiyini sübut edir. Adın mənasına gəldikdə isə,

bu ad kaslarda Kaşşu qədim türk tanrı adından yaranmışdır. Naxçıvan ərazisində qədim arxiv və mənbə məlumatlarında Qazan qolu ilə bağlı 5 Qazançı (3 kənd), Qazançılı, Qazanlıqdərə məntəqə adı qeydə alınır [3, s. 37, 61, 66]. Bu adlar tayfa adı Kas+An sözlərindən yaranmaqla "Anu tanrısının kasları" mənasında mifoloji inancla formalaşmış adlardır. Onlara qoşulmuş çı-"tayfa", lı-şəkilçi, "dərə" sözləri adlara sonrakı əlavələrdir.

Nəticə olaraq qeyd edək ki, Bolqar tayfa qolları ilə bağlı etnooykonimlərdə qeydə alınan kur-"coşqun", böri-"qurt", uk-"oğul, varis", ur-"qurmaq, yaranmaq", kan-"kağan", çı-"tayfa", si/zu-"müdrik, zəkalı", ər-"kişi, igid" qədim türk sözləri, un/an-"mənsubluq" şəkilçisi və s. dil elementləri m.ö. V-III minilliklərdə türk tayfa adlı etnooykonimlərdə də təkrarlanır. Bu isə Bolqar türkləri ilə bir ittifaqda olan göstərilən tayfaların eyni dilli olub, eyni mənşədən gəlməklə qədim türk mifoloji inanclarına sahib olduqlarını bir daha sübut edir.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Афанасьев Г.Е. Где же археологические свидетельства существования Хазарского каганата? // Российская археология. Москва:Наука 2001, № 2, с. 43-55
2. Дрвнетюркский словрь. -Ленинград: Наука,1969, 676 с.
3. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
4. Хоренский Моисей. История Армения. Пер. Н.О.Эмина, Москва: Яуза, СПб., 1893, 323.
5. Karşılaştırmalı Türk Lehceleri Sözlüğü I cild, Ankara: Kültür Bakanlığı, 1992, 1183 s.
6. Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. Баку: Элм, 1991, 548 с.
7. Qeybullayev, Q.A. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
8.Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
9. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
10.. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
11. Новосельцев А.П.. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. Москва.: Наука, 1990, 264 s.,
12. Нурутдинов Ф.Г. Булгары и мировая цивилизация / Бахши Иман. «Джагфар тарихы».Свод булгарских летописей. Т.1. Оренбург: Болгария, 1993, 393 с.
13. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
14. Сокровища булгарского народа. Выпуск 1. Этногенез. История. Культура. Под ред. акад. Ю.К. Бегунова Санкт-Петербург: Санкт-Петербург, 2007, 304 s
15. Щербак А.М. Огуз-наме. Мухаббат-наме. Москва: Наука, 1959, 320 с.
16. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 1230 с. 10 акт
17. Всемирная история. Т. I, Москва: Госиздат,1956, 746 с.
18. Всемирная история. Т. II, Москва: Госиздат, 1956, 899 с.
19.Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.


**РЕЗЮМЕ**

**Следы имен древнетюркского Болгарского мифа в топонимах Нахчыванской территории**


**Фирудин Рзаев**

*В статье говорится о следи древнего Болгарского мифа на территории Нахчыванских топонимах, который занимает особые месты в древнеюркской мифологии. В исследованиях история Тенгри Иммерия, Камир, Гамар kиммеров которая относится к II-I тысячелетию до н.э. и вспоминается и в других тюрках, оставили свои следы в топонимах территории Нахчывана до нашего дня. Связы Нахчыванской земли с этими мифами, до тех пор не были исследованы азербайджанскими и тюркскими учеными и не анализированы значение имен Тенгри. В статье миф болгаров на территории Нахчыванских ойконимах подтверждены на основе исторических фактов. Племени носившие этих мифов повторяются вообше во всех топонимических системах, в ойконимах, оронимах, и гидронимах Нахчывана.*

*Существование топонимы с именем болгарских тюрков подтверждает древность веровании этого мифа. Места этого имена в тюрках Азербайджана, Нахчывана, в том числе и в других тюрках обосновывается научными фактами.*

**Ключевые слова: Болгарский миф, *Азербайджан, Нахчыван, ойконим, ороним. гидроним***

## SUMMARY

## THE TRACES OF KIMMER ANCIENT TURKIC MYTH IN THE TOPONYMS OF NAKHCHIVAN TERRITORY

**Firudin Rzayev**

The article deals with the traces of Bolqar ancient Turkic myth which has a special place in the Turkic mythic thinking, in the toponimist of Nakhchivan territory. The history of the Bolqar myth, mentioned in the researches belongs to the *II-I* millennium BC and is kept in the territorial toponimist names till today. Azerbaijani and Turkish, scientists, have not investigated the trace of this ancient myth in Nakhchivani toponimist and the explanations of related names have not been given. In the article the Bolqar name in the oykonim, oronim, and hydronium of the ancient Nakhchivan territory toponimist is proved on the bases of linguistic and historical facts. This myth is almost repeated in the initial Bolqar variant of oykonim, oronym, hydroniums of the toponimist system.

The preservation of Bolqar name in the prototurkish names confirms the antiquity of this mythic belief. The place of this name both in Nakhchivan, and in other Turks is alleged on the basis of the scientific facts in the article.

**Key words:** Bolqar myth, Azerbaydjan, Nakhchivan, oykonym, oronym. Hidronym